# Student travellers: Educational geography of medieval Azerbaijan

Author **Akbar Najaf**
Researcher of general Turkish history of the Middle Ages. Azerbaijan, Baku. E-mail: ekbernecef@gmail.com
https://orcid.org/0000-0003-4075-0300

Abstract The scientific journeys that started in the Muslim world in the 8th century resulted in a different movement in the vast geography from Turkestan to Andalusia. Science seekers sometimes joined the large 25-kilometer-long trading caravans. While journeying from city to city and from madrasa to madrasa, scholars, students, dervishes and storytellers, numbering in the thousands and even tens of thousands, were not aimed only at finding books and teachers. In this century, the scientific world was looking for an answer to the question «Which is the source of knowledge? Teachers or books?» It is very interesting that those who believe in a book whose first verse starts by saying «Read!» think it is teachers. Scholars of that period believed that «since books do not speak for themselves, in all cases, there is a need for scholars that communicate with them; therefore, the advantage of teachers must be recognized». However, finding experienced scholars and learning science from them was not the last method. What was the reason for this? In the 9th century, the scientific centers of the cities well-known for their economic and political potential were full of people of different identities. What separated these people were their nicknames such as al-Bardai, al-Nakhchivani, al-Arrani, al-Shirvani, al-Khorasani, al-Bitlisi, etc. Many of them have spent half their lives on roads to obtain scientific knowledge. Why? Our article focuses on finding answers to these questions.

Keywords Road, information, student, journey, science, geography, traveler, teacher.

http://dx.doi.org/10.29228/edu.159
**To cite this article:** Najaf A. (2020) Student travellers: Educational geography of medieval Azerbaijan. Azerbaijan Journal of Educational Studies. Vol. 691, Issue II, pp. 123–134
**Article history:** Received — 18.02.2020; Accepted — 11.04.2020

# Səyyah tələbələr: Orta əsrlər Azərbaycanının təhsil coğrafiyası

Müəllif **Əkbər Nəcəf**
Orta əsrlər ümumi Türk tarixi tədqiqatçısı. Azərbaycan, Bakı.
E-mail: ekbernecef@gmail.com
https://orcid.org/0000-0003-4075-0300

Annotasiya VIII əsrdə müsəlman aləmində başlayan *elm səyahətləri* Türküstan diyarından Əndəlüsə qədər geniş coğrafiyada fərqli bir hərəkətliliyə səbəb oldu. Bəzən uzunluğu 25 kilometrə çatan böyük ticarət karvanlarına elm axtaranlar da qoşuldular. Sayları minlərə, hətta on minlərə çıxan alimlər, tələbələr, dərvişlər, ravilər ordusu şəhər-şəhər, mədrəsə-mədrəsə gəzərkən məqsədləri sadəcə kitablar və müəllimlər tapmaq deyildi. Bu əsrdə elm dünyasında belə bir sual gündəmdə idi: «Elm öyrədən – kitablardır, yoxsa müəllimlər?». İlk ayəsi «Oxu!» olan kitaba inananların bu suala verdikləri cavabın «müəllimlər» olması çox maraqlıdır. Dövrün alimlərinə görə, «kitablar öz-özünə danışmadıqları üçün, bütün hallarda onlarla ünsiyyət yaradan bilginlərə ehtiyac vardır, buna görə də müəllimlərin üstünlüyü qəbul edilməlidir». Lakin yetkin alim tapmaq və ondan elm öyrənmək də son vasitə deyildi. Bəs bunun səbəbi nə idi? IX əsrdə iqtisadi və siyasi baxımdan ad çıxaran şəhərlərin elm mərkəzləri müxtəlif kimliklərdən olan insanlarla dolub-daşırdı. Bu insanları bir-birindən ayıran – uzun adlarının sonunda daşıdıqları «əl-Bərdəi», «əl-Naxçıvani», «əl-Arrani», «əl-Şirvani», «əl-Xorasani», «əl-Bitlisi» və s. nisbələrdi. Onların bir çoxu elm üçün həyatlarının yarısını yollarda keçirmişdilər. Niyə? Məqaləmizin məqsədi məhz bu suala cavab axtarmaqdır.

Açar sözlər Yol, xəbər, tələbə, səyahət, elm, coğrafiya, səyyah, müəllim.

http://dx.doi.org/10.29228/edu.159

**Məqaləyə istinad:**
Nəcəf Ə. (2020) Səyyah tələbələr: Orta əsrlər Azərbaycanının təhsil coğrafiyası. «Azərbaycan məktəbi». № 2 (691), səh. 123–134.

**Məqalə tarixçəsi:** Göndərilib — 18.02.2020; Qəbul edilib — 11.04.2020

## Tələbə

«Tələbə» sözü «tələb»dən gəlir. Ərəbcədən dilimizə keçən bu kəlmə IX əsrdən etibarən elm öyrənənlərə *(tələbül-ilm)* verilən ümumi ada çevrilib. Orta əsrlərin müsəlman Şərqində elm anlayışı tələb və təlimə söykənirdi. O zamanlar öyrənmək «rihlə» (səyahət) ilə mümkün idi. Dövrün mənbələrində elm üçün səyahət edənlərə Xətib Əbu Zəkəriyyə ət-Təbrizinin həyatı nümunə olaraq göstərilir. Belə ki, əl-Əzhəri adlı alimin «Kitab əl-təzhib fil-luqa» adlı üç cildlik əsərini əldə edən Xətib Təbrizi dilin incəliklərini və kitabdakı məqamları dərindən öyrənmək məqsədi ilə ətrafındakı alimlərlə məsləhətləşir. Ona soruşduğu məsələlərin elmi dərinliyinə tam yiyələnmək üçün Hələb yaxınlığında Məərra deyilən yerdə yaşayan Əbül-əla adlı alimi məsləhət görürlər. Maddi vəziyyəti ağır olan Xətibin səyahət etmək üçün heyvan kirayələyəcək pulu olmadığından kitablarını, qələm və kağızını xurcunlara doldurub kürəyinə yükləyərək piyada Məərraya doğru yola düşür [Ay R. 1998, s. 66].

81 il həyat sürən Xətib Təbrizinin (1028-1109) elm öyrənmək yolunda göstərdiyi bu fədakarlıq və tələbkarlıq onun dövrünün ən böyük ədibləri arasında yer alması ilə nəticələndi. Dil və qrammatika haqqında onlarla əsərlərə imza atan alim Şərqin ən böyük ədəbiyyatşünası hesab olunur [Nəsirov E. 2011, s. 262-263]. Orta əsr mənbələrində Xətib Təbrizi kimi elm öyrənmək uğrunda həyatını fəda edən yüzlərlə alimdən bəhs edilir.

Elm öyrənmək insanın ən ali istəyi olmuşdur. İnsan fitrətən öyrənərək inkişaf edən varlıqdır. İnsan digər varlıqlardan fərqli olaraq maddi ehtiyacları ilə yanaşı mənəvi ehtiyaclarını da qarşılamaq hissinə sahibdir. İnsanın mənəvi ehtiyacları onun fəzilətini ifadə edir. Çünki insan üçün dəyər onun sahib olduğu ədəb və ədib ölçüləri üzərində qurulmuşdur. İslam dini bu mənada elmin, əxlaqın və təhsilin qapılarını bütün insanlara açmışdır. İslama qədər elm seçilmiş və yuxarı təbəqədən insanların məşğuliyyəti olarkən, Məhəmməd Peyğəmbər elmi bütün insanlığın müştərək mülkiyyəti elan etdi. Bu mənada İslamın yayılması ilə elmi fəaliyyətlər görülməmiş dərəcədə inkişaf etmişdir.

IX əsr elm tarixinin qızıl dövrü hesab olunur. Bu dövrdə müsəlman şəhərlərinin inkişafı ilə birgə elmi əlaqələr artmış, geniş İslam coğrafiyasında yaşayan insanlar arasında ədəbi-bədii münasibətlər formalaşmışdı. Bu mədəniyyətin inkişafında Azərbaycan böyük rol oynamışdır. Bərdə, Təbriz, Gəncə, Ərdəbil, Marağa, Ani, Divin, Dərbənd, Şirvan, Naxçıvan, Varsan və başqa onlarla Azərbaycan şəhəri dövrün ədəbi-elmi fəaliyyətlərinə qoşulmaqla yanaşı yüzlərlə alim və mütəfəkkir yetişdirmişdir. XII əsr alimlərindən olan Əbu Səad Əbdülkərim ibn Məhəmməd əs-Səmaninin (1113-1167) qələmə aldığı «Kitab əl-Ənsab» adlı alimlər haqqındakı bioqrafik əsərinə öz dövrünün ən tanınmış 120 Azərbaycan aliminin adını həkk etməsi heç də təəccüblü deyildir [Əliyeva N. 2010, s. 91-133].

Səmaninin kitabında adları çəkilən alimlərin Ərdəbil, Əbhər, Urmiyə, Uşnu, Xoy, Bab (Dərbənd), Bakı, Bərdə, Bərdic, Bərzənd, Beyləqan, Təbriz, Tiflis, Zəncan, Savə, Duveyn (Dvin), ər-Ran (Aran), ən-Nəşəv (Naxçıvan), Səlmas, Marağa, Mərənd, Gəncə, Ərmən, Varsan, Yunan, Vənn, Nəriz və başqa şəhər, qəsəbə və kəndlərdə doğulduqları qeyd edilir. Səmaninin adlarını yazdığı və öz dövrünün tanınmış alimləri hesab olunan bu adamların demək olar ki, hamısı «səyyah tələbə» olmuşlar. Onlar elm öyrənmək üçün doğma yurdlarını tərk edib həyatlarının uzun bir dövrünü hər elmi ən yaxşı müəllimindən öyrənmək məqsədilə şəhər-şəhər, vilayət-vilayət gəzərək keçiriblər. Azərbaycanda elm üçün başqa diyarlara gedən tələbələr olduğu kimi, başqa ölkələrdən də Azərbaycana gələn tələbələr olmuşdur. Bəzən bir tələbənin ömrünün təqribən yarısını elm üçün səyahətdə keçirdiyi qeyd edilir. Əbu əl-Qasım Süleymaninin 33 il boyunca Hicaz, Yəmən, Misir və Mesopotamiya ölkələrini dolaşdığı, alimlik dərəcəsi əldə etdikdən sonra isə 1000-ə qədər müdərris yetişdirdiyi qeyd edilir [Dağ M. 1974, s. 221].

Orta əsr mənbələrində IX-XVII əsrlər arasında Azərbaycanda anadan olmuş, tələbəlik illəri səyahətlərdə keçən və alimlik dərəcəsi alan böyük elm adamlarının bir siyahısını müəyyən etmək mümkün olmuşdur. Həmin siyahıda ümumilikdə 711 alimin adı keçir. Qeyd edək ki, bütün İslam aləmində tanınmış həmin alimlərin adları mənbələrdə zikr edilmişdir (Cədvəl 1).

## Yol və xəbər

Avropalıların «orta əsrlər» *(medio evo)* adını verdikləri, son dövr müsəlman tədqiqatçıların «İslami çağ» dedikləri, təqribən, min illik tarixi prosesdə (VII-XVII) sayları yüzlərlə olduğu qeyd edilən sufi camaatlarını və təriqətlərini bir-birindən ayıran başlıca xüsusiyyətlərdən biri də zikr tərzləri olmuşdur. Zikr hər sufi təşkilatın tətbiq etdiyi xüsusi bir ritualdır. Əsasən, ibadət və söhbət məclisinin sonlarında təşkil olunan zikrayinləri mürşidin rəhbərliyində mistik bir havada, sadəcə, o dərgaha bağlı müridlərin iştirakı ilə icra olunurdu.

Əsasən *Hu Allah, Ya Hu* kimi qısa sözlərdən ibarət, sistemli və kollektiv şəkildə bəzi fiziki hərəkətlərlə icra olunan zikr mərasiminin mənası «səyahət» etməkdir. Zikr əsnasında insan özünü ritual və teatral bir ahəngə bağlayaraq dünya ilə əlaqəsini qoparıb səmaya doğru yol alırdı. Bu mənada bəzi sufi dərgahlarında zikrə səma deyilirdi. «Səma» sözünün təsəvvüfi mənasının «elm almaq» olması bu cəhətdən maraqlıdır. Yəni zikr ayininə qoşulan müridlər bir karvan kimi öz mürşidlərinin izi ilə dünyanın xaricinə elm səyahətinə çıxırdılar. Onlar üçün həqiqi yol (din) məhz bu səyahət idi.

Orta əsrlər bir məkandan başqa bir məkana uzanan uzun, ağır, məşəqqətli və çətin yollar dünyasıdır. Ümumi mənada səyyah və ya *yolçu* hesab edilən *yoldaşların* məqsəd və məramları fərqli olsa da, onları istəklərinə eyni xətlər aparırdı. Bu

**Cədvəl 1.** IX-XVII əsrlərdə tələbəlik etmiş Azərbaycan alimlərinin nisbələrinə görə siyahısı [Nəsirov E. 2011, s. 66-384].

| Alim və tələbələrin anadan olduğu yerlər | Sayı | Alim və tələbələrin anadan olduğu yerlər | Sayı |
|---|---|---|---|
| Ani | 1 | Səlmas | 25 |
| Azərbaycan | 7 | Sərab | 2 |
| Aran | 3 | Sücas | 4 |
| Bərdə | 37 | Sührəvərd | 24 |
| Bərdic | 2 | Şirvan (Şamaxı, Şabran və Bakı daxil) | 71 |
| Bərzənd | 4 | Talış | 3 |
| Beyləqan | 7 | Təbriz | 122 |
| Dərbənd | 18 | Tiflis | 26 |
| Düveyn | 12 | Urmiyə | 55 |
| Əbhər | 38 | Uşnu | 7 |
| Əhər | 5 | Varsan | 6 |
| Ərdəbil | 41 | Xalxal | 4 |
| Ərməniyyə | 4 | Xoy | 23 |
| Gəncə | 19 | Xunəc | 4 |
| Marağa | 75 | Qarabağ | 3 |
| Mərənd | 20 | Zəncan | 20 |
| Miyanəc | 8 | Ümumi | 711 |
| Naxçıvan | 34 | | |

mənada uzun karvan dəstələrində tacirlərə, alimlərə, tələbələrə, dərvişlərə, zəvvarlara, sənətkarlara, şairlərə, hətta dəlilərə *(cünun)* bir yerdə rast gəlmək heç də təəccüblü deyildi.

Bütün bu insanları yollara salan başlıca səbəb *«xəbər»*dir. Müsəlman fikir tarixi bu mənada «əxbar»la (xəbərlər) başlayır. 857-ci ildə vəfat edən, «Elm kitabı» əsərinin müəllifi Əbu Xuseymə ilk dünya səyyahı kimi təqdim etdiyi Məkhulaya (vəfatı 730-cu il) məxsus səyahətnamə qeydlərindən bəhs edərkən bir alimi səyyaha çevirən xəbərin varlıq dəyərindən də bəhs edir. Xəbər dalınca ömrünü xərcləyən bu alim-səyyahın məqsədi doğru xəbəri əldə etməkdir. Lakin bir xəbərin doğrusunu əldə etmək son məqsəd deyildir. Əldə edilən doğru xəbəri bir sonrakı mərhələdə təsdiq etmək gəlirdi. Xəbər öz təsdiqini tapdıqdan sonra rəvayətə çevrilirdi. Müsəlman elm dünyası da məhz bu rəvayətlər əsasında şəkillənmişdir. Başda hədis olmaqla, dil və ədəbiyyat, coğrafiya, tarix, kəlam və s. islami biliklər uzun rəvayət silsiləsinin məhsullarıdır.

Bir təhsil metodu olaraq seçilən yol-səyahət anlayışı hələ qədim yunan filosoflarından bizə məlumdur. Müsəlmanların *məşai* adını verdikləri müəllimlərinin arxasınca dolaşan tələbələrlə bağlı tarixi məlumatlara Aristoteldən etibarən rast gəlmək mümkündür. Aristotel öz dərslərini gəzərək təqdim edirdi. Stoacılar bu metodu daha da təkmilləşdirdilər. Onlara görə gəzmək – müşahidəni və axtarışı təşviq edirdi. Bu metodun adı latınca «quaestiones» idi. Günümüzdə «qazustik» şəklində tələffüz edilən bu metod geniş şəkildə mühəddislər (hədis toplayanlar) tərəfindən müsəlman elm anlayışına tətbiq edildi. «Məsail» (məsələlər) adlandırılan bu qazustik anlayışın məqsədi biliklə bərabər onun əhatə etdiyi sahəni bir bütün olaraq qavramaqdır. Bu metoda ərəblər «haddasa», yəni «nəql etmək, xəbər vermək, xəbərçilik etmək və danışmaq» mənasında hədis deyirdilər [İbn Sad. 1909, c. VI, s. 59]. Hədisin təməlində də məhz xəbər dayanırdı.

## Bilik və müəllim axtarışı

İbn Saadın (784-845) «Tabaqat» adlı əsərində maraqlı bir məlumat yer alır:

«İbrahim vəfat etdikdən sonra onun boşluğunu Ameşin (767-ci ildə vəfat edib) dolduracağını düşünürdük. Bu məqsədlə onu ziyarət etdik və *caiz ilə məmnu* (fiqhlə bağlı mövzular – Ə.N.) məsələsində sorğu-sual etdik. Lakin çox az şey bildiyi ortaya çıxdı. Sonra ona *fəraiz* (mirasla bağlı məsələlər – Ə.N.) haqqında suallar verdik. Bu mövzunu mükəmməl bildiyini gördük. Daha sonra Hammadı (730-cu ildə vəfat edib) ziyarət etdik. Sorğu sırasında fəraizi bilmədiyi, ancaq caizilə məmnunu gözəl bildiyi aydın oldu. Biz də fəraiz elmini Ameşdən, caiz ilə məmnunu isə Hammaddan öyrənməyə qərar verdik» [İbn Sad. 1909, c. VI, s. 232].

«Tabaqat» əsərində onlarla nümunəsi qeydə alınan belə rəvayətlərin işarə etdiyi əsas məsələ bilik əldə etmək istəyən tələbələrin öz müəllimlərini seçərkən alimin elmi potensialını öyrənmək üçün onu sorğu-suala çəkmələridir. Yəni müəllim tələbəni deyil, tələbə müəllimi seçir və onun elmi səviyyəsinə əmin olduqdan sonra tədrisə başlayırdı. Bu metod İslam təhsil sisteminin başlıca xüsusiyyəti idi.

Elminə müraciət olunan alimin biliyinin dərinliyini təyin etmək iki tərkibdə mümkün idi: birincisi – doğruluq; ikincisi – saflıq. Bu iki tərkib bütünlükdə müsəlman elm anlayışının əsasını təşkil edən iki kateqoriyadan qaynaqlanırdı. Bu iki kateqoriya da bir kimliyə, yəni peyğəmbərin varlığına bağlı olaraq formalaşmışdı.

Məlum olduğu kimi, peyğəmbərlər vacibül-elm olan həqiqi elmi vəhy yolu ilə birbaşa Allahdan alırlar. Onların elmi ən doğru elm hesab olunurdu. Yəhudi, Xristian və İslam dinlərində insanlar arasında ən doğru elm sahibləri, yəni həqiqi müəllimlər elə peyğəmbərlərin özləri hesab olunur. Bu mənada elm axtaranlar

doğru xəbər kimi peyğəmbərə aid olan məlumatı əsas alırdılar. Peyğəmbərə aid olan bir fikri ilk olaraq onun ətrafı (həvarilər və ya səhabələr) eşitdiyindən xəbər dalğavari olaraq günümüzə qədər yayılaraq davam edirdi. Bir hədisə görə, Peyğəmbər «mənim əsrim ən yaxşısıdır, sonrakı əsrlər o qədər yaxşı olmayacaq», – deyə buyurmuşdur. Hətta peyğəmbərin əmisi oğlu, eyni zamanda, sahəbələr arasında alim hesab olunan Abdullah ibn Abbasın (vəfatı 687-ci il) öz tələbələrinə illəri «səfillik və ədalətsizlik» nisbətinə görə ayırdığı qeyd edilir. Ona görə, gələn hər il bir əvvəlkindən daha mənfi və ədalətsiz olmağa məhkumdur. Buna səbəb kimi o, insanların ilbəil peyğəmbərdən və onun elmindən uzaqlaşmasını göstərir.

Belə olan halda müsəlman alimləri elmi iki kateqoriyada qiymətləndirməyə başladılar:

a) təqlidi elm;

b) mühafizəkar elm.

Birinci kateqoriyada ən doğru elm peyğəmbərə məxsus olduğundan onun təqlid edilməsi meyar götürülmüşdür. Buna görə, bir halda ki, ən doğru elm sahibi peyğəmbərsə, o halda onun dedikləri və davranışları bilik və təhsil adına ən doğru olandır. Buna görə də, peyğəmbərin söylədikləri və etdikləri olduğu kimi təqlid edilməlidir.

İkinci kateqoriyada təqlid olunan ən doğru elm olduğu kimi mühafizə edilməlidir. Əks halda doğru yoldan sapmaq qaçılmaz olacaqdır. O halda, bilik və müəllim axtarışında müsəlmanların təməl fəaliyyəti elə peyğəmbəri axtarmaq olmuşdur. Fiziki olaraq peyğəmbəri tapmaq mümkün olmadığı üçün ona dair xəbərləri əldə etmək, doğruluğunu təsdiq etmək müsəlman elm adamlarını səyahətə məcbur edən ən mühüm səbəb olmuşdur. Hicaz hüquq məktəbinin ən böyük müəllimi olan Ata ibn Əbi-Rabah (vəfatı 733-cü il) dərs verdiyi tələbələr üçün elmin nə olduğunu məhz bu istiqamətdə açıqlamışdır. Onun elm adını verdiyi şey «hədislər»dən (peyğəmbərə dair xəbərlərdən), rəy adını verdiyi isə həmin xəbərlər əsasında alimlərin açıqlamalarından ibarət idi [İbn Sad. 1909, c. V, s. 345].

## Elm səyahəti

Günümüzdə olduğu kimi orta əsrlərdə də səyahət etmək üçün böyük məbləğdə pul tələb olunurdu. Məqsəd elm olduğunda bu məbləğ iki, hətta üç qatına çıxırdı. Nəzərə almaq lazımdır ki, bir tələbə yemək və geyim ehtiyacından başqa, səyahət üçün heyvan kirayəsi, kağız və kitablarının da pulunu qarşılamalıydı. Ancaq bu maddi çətinlik orta əsrlərdə yollarda hərəkət edən *talibləri* qorxutmurdu. Həmin taliblər arasında imkanlı ailələrin uşaqları ilə yanaşı, ailəsindən miras qalan mülkü satıb elmə xərcləyənlər, Xətib Təbrizi kimi yükünü çiynində daşıyaraq piyada yola çıxanlar, Səhl ibn Abdullah kimi ağlına gələn bir suala uyğun cavabı

tapa bilməyib yollara düşən 13 yaşlı uşaqlar,[1] Yəhya ibn Yəhya əl-Leys kimi «əl-muvatta» (fiqh elminin bir qolu) oxumaq üçün 28 yaşında Şərq diyarlarını dolaşan tələbələr[2] də yer alırdı. Talib olmaq həvəsinə düşənlərin hamısı böyük şəhərlərdə və böyük mədrəsələrdə təhsil alıb elmini artırmaq istəyənlərdən ibarət deyildi. Səmani Azərbaycan alimlərindən bəhs edərkən «Uşnuhi», «Bərzəndi», «Zəncuni», «Səbəxi» ləqəbli alimlərdən söz edərkən, Uşnunun bir kənd, Bərzəndin qəsəbə şəhəri, Zəncunun Zəncanın bir kəndi, Səbəxin isə ot bitməyən bir yer olduğunu qeyd edir [Əliyeva N. 2010, s. 96; 115-116]. Bu məlumat elm öyrənmək üçün maddi və coğrafi məhdudiyyətin olmadığını göstərir.

IX əsrdən etibarən tələbə və alimləri başqalarından fərqləndirən xüsusi geyim tərzləri formalaşmağa başladı. Ən diqqətçəkən geyim tərzi bir qolu geniş olan libaslar idi. Həmin libasları geyinən tələbə və alimlər qolun astarla üst arasına tikilən geniş cibə kağız, qələm, hətta kitablarını qoyurdular [Houarı T. 2016, s. 75, qeyd 7].

Tələbənin səyahətinin məhdudiyyəti yox idi. Tələbə hansı elmi hansı müəllimdən daha yaxşı əldə edə biləcəyi şəhərləri bir-bir dolaşırdı. XII əsrin «əllamə» olaraq ad çıxarmış məşhur fəqihi Tacəddin Əbül-Həsən Əli Ərdəbildə doğulub boya-başa çatdığı halda hədisi Qütbəddin Mahmud Şirazi və Şəmsəddin ibnül-Müəzzindən, dil və fiqhi Rüknəddin əl-Hədisidən, xitabət və bəyanı Nizaməddin ət-Tusidən, hikmət və məntiqi Seyyid Bürhanəddin Übeydullahdan, xilafı Əlaəddin Neman əl-Xarəzmidən, hesab, həndəsə və astronomiyanı Kəmaləddin Həsən İsfərahidən, cəbri Səlahəddin Musdan, fiqhin bəzi məsələlərini Şeyxülsilam Siracəddin Həmzədən öyrənmək üçün bu alimlərin yaşadığı ölkələri dolaşmışdır [Nəsirov E. 2011, s. 119].

Düveyndə (Dvin) anadan olan, dövrünün mötəbər şeyxi olaraq ad çıxaran Əbül-Abbas Əhməd ibn Məhəmməd (X əsr) tələbə ikən Misirə qədər səyahət etmişdir. Adı yaşadığı dövrünün böyük mühəddisləri arasında zikr edilən Əbu İshaq İbrahim ibn Əhməd təhsil üçün Azərbaycandan başqa İran, İraq, Hicaz, Xorasan şəhərlərinin çoxunu gəzmişdir [Nəsirov E. 2011, s. 171].

---

[1] Səhl ibn Abdullah ət-Tustəri hələ uşaq yaşlarından oxumağı və yazmağı öyrənmiş, alimlərin söhbətlərinə qulaq asmış və elmi məclislərdə iştirak etmişdi. 13 yaşında onu narahat edən bir suala cavab tapmayınca məmləkətini tərk edib səyahətə çıxmış və Bəsrəyə qədər gəlmişdi. Burada da onu qane edən cavabı almadıqda Abadana hərəkət etmiş və Əbu Həbib Həmzə ibn Əbu Abdulladan istədiyi cavabı almışdır [Ay. 1998, s. 67].

[2] Yəhya ibn Yəhya əl-Leys 848-ci ildə vəfat etmiş, tanınmış Əndəlüslü alimdir. 28 yaşında ölkəsindən ayrılan Yəhya Hicaz, Misir və Şimali Afrikanın bir çox şəhər və mədrəsəsini gəzərək elm öyrənmişdir [Ay. 1998, s. 67].

Bəzən eyni ölkədə onlarla mədrəsədə tələbəlik edənlər olurdu. Şabranlı alim Kəmaləddin Məsudun (1486-cı ildə vəfat edib) Teymurilər sarayının ən böyük həkimlərindən olduğu qeyd edilir. Onun Şabrandan Herata getdikdən sonra İxlasiyyə, Gövhərşad, Qiyasiyyə başda olmaqla çox sayda mədrəsədə oxuyub və müəllimlik etdiyi bildirilir [Nəsirov E. 2011, s. 250].

## Təhsil xərcləri və tələbəlik illəri

Elmi səyahətlərin xərcləri tələbələrin maddi imkanına, gəzdikləri məkanlara, elm əldə etmək üçün cəhdlərinə görə dəyişirdi. Dövrünün böyük alimləri arasında yer alan Abdulla ibn əl-Mübrəkin (797-ci ildə vəfat edib) atasının ona iş qurmaq üçün verdiyi 50 min qızıl pulu elmə xərclədiyi qeyd edilir. Əbu Hənifənin tələbəsi olan Xaricə ibn Musab tələbəlik üçün 100 min gümüş sikkə xərcləmişdir [Houarı T. 2016, s. 76].

Elmi səyahətdə tələbənin əldə etmək istədiyi elm sahəsi, məkanı və ehtiyacları əsas xərclərə daxil idi. Misal üçün, təməl təhsilini Bərdədə almış bir tələbə təhsilini davam etdirmək üçün hüquq *(fiqh)* elmini seçmişsə, bu sahədə ən yaxşı təhsili haradan alacağını araşdırırdı. Araşdırmaları sırasında seçdiyi müəllim Bağdadda isə oraya gedir və həmin müəllimin mədrəsəsində təhsilə başlayırdı. Əgər müəlliminin verdiyi elmdən razı qalmazsa və ya bu sahədə daha yaxşı müəllimin bir başqa yerdə olduğunu öyrənirdisə oxuduğu mədrəsəni tərk edib o müəllimin yaşadığı şəhərə gedirdi. Bu yerdəyişdirmələr böyük xərc tələb edirdi. Məsələn, Əli ibn Asim (816-cı ildə vəfat edib) Vasıtdan Küfəyə gedib orada təhsil üçün 1 min dinar xərcləmişdi [Houarı T. 2016, s. 77].

Təəssüflər olsun ki, Səmaninin əsərində Azərbaycan alimlərinin təhsil xərcləri haqqında məlumat verilmir. Bu dövrdə Əndəlüsdən (İspaniya) Fustada (Misir) gəlib burada təhsil almağın xərcinin orta hesabla 6 min dinar olduğu məlumdur. Lakin hər tələbənin səyahət üçün bu pulu xərcləmək imkanı olmurdu. Belə olan halda çox sayda tələbə səyahətinə piyada davam edirdi. Əbu Xətif ər-Razi (vəfatı 890-cı il) özünün tələbəlik xatirəsində yaşadığı çətinlikləri belə təsvir edir:

*«İlk səyahətim yeddi il davam etdi. 1000 fərsəxdən çox məsafəni piyada getdim. Bəhreydən yola çıxıb Misirə çatdım. Oradan da piyada Suriyaya gəldim. Ramallahdan Şama, Şamdan Antakyaya, Antakyadan Tarsusa getdim. Oradan Xumusa geri qayıdıb Raqqa yolunu tutdum. Oradan İraqa keçmək üçün gəmiyə mindim. O vaxtlar iyirmi yaşına hələ girməmişdim. 829-cu ildə səkkiz ay Bəsrədə qaldım. Qarnımı doyurmaq üçün libaslarımı satmağa başladım. Çılpaq qalacaq şəkildə hər şeyimi satdım. Yenə də yoldaşımla birlikdə müəllim axtarışını davam etdirdik... Artıq aclığımı basdırmaq üçün sudan başqa heç nəyim yox idi. Belə olan halda yenə də dərslərə davam edirdim. Günün axırında mədəmin boşluğundan dayanacaq gücüm qalmamışdı»* [Er-Razi. 1968, c. I, s. 363-364].

Tələbələrin ən böyük imtahanı aclıq idi. Bəzi tələbələr təhsilini davam etdirmək üçün sahib olduqları əşyaları, xüsusilə də paltarlarını satmaq məcburiyyətində qalırdılar. Məşhur hədis alimi Buxari belə, hər şeyini satdıqdan sonra qaldığı otaqda yarıçılpaq şəkildə aclıqdan huşunu itirmişdi.Onu bir neçə gün görməyən dostları gəlib içəri girməsəydi bəlkə də öləcəkdi. Hənbəliliyin qurucusu Əhməd ibn Hənbəli də gənc ikən «50 dirhəm» tapa bilmədiyi üçün Reyə təhsil almağa gedə bilmədiyini təəssüflə xatırlayırdı [Houarı T. 2016, s. 81].

Zəhəbi öz əsərində «Misirdə yeddi ay təhsil aldım, bu yeddi ayda bir dəfə belə isti xörək yemədim», – deyən bir alimin tələbəlik xatirəsini zikr edir. O, başqa bir alimin həyatından bəhs edərkən, tələbəlik illərində iylənmiş balığa necə möhtac olduğunu yazır [Zəhəbi. 1984, c. XIII, s. 265].

Mənbələrə əks olunan bu hekayələrlə birlikdə aclıq və digər məhrumiyyətlərdən həyatlarını itirən tələbələrin hekayəsi də az deyildir. Bəziləri çıxdığı elm yolundan heç qayıtmazkən, bəziləri də məqsədə çatmadan yollardaca həyatlarını itirirdilər. Ən böyük dərd isə korluq idi. Gecə çalışmaları çox sayda tələbə və alimin göz itirməsinə səbəb olmuşdur. Xavari Tuati haqlı olaraq «göz xəstəlikləri orta əsr alimlərinin ortaq dərdidir», – deyə yazır [Houarı T. 2016, s. 85].

Şübhəsiz, müəllimlərindən narazı olan tələbələrdə az deyildi. Nesalı bir alimin dərslərinə davam edən bir tələbə «müəlliminin hər gün, sadəcə, bir neçə hədislə dərsi yola verməsindən» şikayət edirdi. Həmədani özünün «Məqamat» adlı əsərində bir talibin tələbəlik həyatını belə sorğu-sual edir:

*« – Elmə hansı yoldan çatdın?*

*– Onu axtarmağa başladım və çatmağın çətin olduğunu qavradım. Ona çatmaq üçün torpaqda yatdım, başımın altına yastıq yerinə daş qoydum. Gecələri yuxusuz qalmam, səyahətlərə çıxmam gərəkdi»* [Həmədani. 1957, s. 109].

### Orta əsrlərdə Azərbaycanın təhsil coğrafiyası

Bütün bu məlumatlar orta əsrlər Azərbaycanının təhsil coğrafiyasının çox geniş olduğunu göstərir. Lakin bütün hallarda Azərbaycan təhsil sahəsi Şərqi-İslam coğrafiyasını əhatə edirdi. Orta əsrlərdə Azərbaycanın İslam Dünyasının şimalında yerləşdiyini diqqətə alsaq, Azərbaycan təhsili pərgər kimi ağzı cənuba doğru açılmış bir görüntü əks etdirirdi.

Hələ VIII əsrdə başlayan, IX əsrdə inkişafının zirvəsinə çatan təhsil fəaliyyətləri orta əsrlər Azərbaycanında «ədiblər» adlanan böyük bir elmi-ictimai təbəqənin formalaşmasına yol açdı. Oxumaq-yazmağın praktikləşməsi və başda ticarət olmaqla həyatın bütün sahələrinə sirayət etməsi elmi biliklərin daha da dərinləşməsinə təsir göstərdi. Makdisi, dövrün ictimai-siyasi təbəqələşməsini tərənnüm edərkən bütün məslək ərbablarının təhsilli insanlardan meydana gəlməsi diqqəti cəlb edir (Cədvəl 2).

**Cədvəl 2.** Ədiblər təbəqəsi [Makdisi G. 2009, s. 280].

| Məsləki ədiblər | Həvəskarlar |
|---|---|
| Elçilər | Münəccimlər |
| Nədimlər | Naşirlər |
| Divan rəisləri | Xəttatlar |
| Saray xətibləri | Müstənsihlər (kitab üzü köçürənlər) |
| Saray şairləri | Fəqihlər |
| Baş vəzirlər | Tacirlər |
| Rəsmi tarixçilər | Sənəd-vəsiqə üzü çıxaranlar |
| Mürəbbilər | Təbiblər |

Elmi təməllər əsasında cəmiyyət kimliyinin yenilənməsi və inkişafı bir sonrakı prosesdə *udeba* adlandırılan yeni cəmiyyət modelinin yaranmasına yol açdı. Bu, cəmiyyət tərkibinin yeni və fərqli formalarda şəkillənməsinə öz təsirini göstərdi. X əsrdən sonra Azərbaycanda daxil müsəlman ölkələrində yaranan qardaşlıq təşkilatları, sənətkar ittifaqları, ictimai birliklər «sinaat əl-ədəb», «xırfət əl-ədəb» kimi adlar alaraq nümunəvi və aparıcı ədib kimliyinin təsirini əks etdirirdi [Makdisi G. 2009, s. 280].

Elmlə səyahət arasında yaranan bağlar elmin yeni forma və sahələrinin də yaranmasına şərait yaradırdı. Müsəlman coğrafiyaşünaslığı və tarix *(əxbar)* elminin məhz bu səyahətlərin nəticəsi olaraq formalaşdığı iddia edilir. *«Rıhlə»* ədəbiyyatının coğrafiyanın başlıca sahəsinə çevrilməsi və bu sahədə çox sayda əsərlərin qələmə alınması bu dövrdə başlamışdır. Müşahidə anlayışının güclənməsinə yol açan bu elmi praktika Cahizlə (868-ci ildə vəfat edib) birlikdə «baxışın (görmənin) pozitiv bilik vasitəsi» olaraq qəbul edilməsinə səbəb oldu [Houarı T. 2016, s. 98].

Gəzmək-görmək-toplamaq əsasında qurulan təhsil metodologiyası elm adamını son nəticədə topladıqlarını təkrar yaymağa təşviq edirdi. Bu prosesi S.Frederick Star «İtirilmiş maarif» əsərində maraqlı bir üslubla təsvir edir: «Gəzərgi alim məfhumu orta əsrlər Avropasında dərin kök salacaqdı, ancaq buna dair norma ondan ibarət idi ki, alim gərək öz doğma yurdunda, şəhərlərində, yaxud monastırında qalaydı. Asiyada isə bu, başqa anlamda idi. Bölgəyə b.e.ə.300-cü ildən sonra yunan mütəfəkkirləri, onların ardınca hind bilginlərinin gəlişi, yəhudi astroloqları, maniçi müdrikləri və nəsturi rahiblərinin səfərləri – bütün bunlar asiyalıların da cavab ziyarətlərinə səbəb olurdu. Xəlifə Məmunun öz kitabxanasını, tədqiqat mərkəzini işlətməsindən əsrlərcə əvvəl fiziki hərəkətlilik və bunun

özülündə duran idealizmlə fürsətçilik qarışığı Orta Asiya insanlarının həyat və düşüncə tərzindən irəli gəlirdi» [Star F. 2017, s. 189].

IX əsrdə böyük bir təhsil dairəsinin yaranması və Azərbaycanın da coğrafi baxımdan bu məkanın tam ortasında yer alması bölgənin elm körpüsünə çevrilməsinə yol açdı. Xilafət sisteminin yaranması ərəfəsində İslam coğrafiyasında bir əyalət olma statusunu ifadə edən Azərbaycan coğrafi əlaqələndirici mövqeyi ilə XI əsrdən etibarən bölgə üçün mərkəz xarakterini aldı. Siyasi baxımdan mərkəzləşən bölgə artıq XII əsrdən etibarən özü elmi fəaliyyətlərin ana məkanına çevrildi. Təbrizin XIX əsrin əvvəllərinə qədər uzanan Şərqi İslam coğrafiyasındakı aparıcı mövqeyi məhz bu siyasi-elmi bazisin qurulmasından qaynaqlanırdı. Təbrizlə yanaşı periodik olaraq Naxçıvan (XII-XIII əsrlər), Gəncə (XII əsr), Şamaxı (XII-XVI əsrlər) mədəni mərkəzlər kimi tarix səhnəsinə çıxdılar. Məhz bu coğrafi aktivlik XIX əsrdən sonra da bölgənin modern elmi-mədəni təsirlərə digər Şərq ölkələrindən daha tez reaksiya göstərməsində başlıca amil olmuşdur.

İstifadə edilmiş ədəbiyyat

1. Ay R. (1998). XIII-XIV. Yüzyıllar Anadolusun`da Klütür Dolaşımı Açısından Dervişler Talebeler ve Hacılar. Hacettepe Üniversitesi Sosyal Bilimler Enstitüsü Yüksek Lisans Tezi. Ankara,
2. Dağ M., Öymen H.R. (1974). İslam Eğitim Tarihi (H.1-VI/M.VII-XIII. Yüzyılda). Ankara: Milli Eğitim Bakanlığı Yayınları.
3. Er-Razi, İbn Əbi Xatif. (1968). Kitab əl-cərh və tadil. Beyrut, c. I.
4. Əliyeva N. (2010). Əs-Səmaninin «Kitab əl-ənsab» əsəri Azərbaycanın mədəniyyət tarixinə dair mənbə kimi. Bakı: Şərq-Qərb.
5. Hemedani. (1957). Maqamat, trasnl. by R.Blachere. Paris.
6. Makdisi G. (2009). İslam`ın Klasik Çağında ve Hıristiyan Batı`da Beşeri Bilimler. Tercüme Hasan Tuncay Beşoğlu, İstanbul: Klasik Yayınları.
7. Məhəmməd ibn Sa`d. (1909). Kitab əl-tabakat el-kəbir. ed. K.V.Zettersteen. Leiden, c. VI.
8. Nəsirov E. (2011). Orta Əsrlərdə Yaşamış Azərbaycan Alimləri (fəqihlər, müfəssirlər, mühəddislər, mütəkəllimlər, ravilər, qarilər). Bakı: Nurlar.
9. Star Frederik S. (2017). İtirilmiş Maarif. Mərkəzi Asiyanın Qızıl Dövrü Ərəb istilasından Teymurləngədək. Bakı: Qafqaz nəşriyyat evi.
10. Touatı Houarı. (2016). Ortaçağ`da İslam ve Seyahat (Bir Alim Uğraşının Tarihi ve Antropolojisi). Çeviren Ali Berktay, İstanbul: YKY.
11. Zəhəbi. (1984). Siyərü ələmin-nubəla. Şuayb əl-Arnauti nəşri, Beyrut.